Mehmet zəngin, lakin sadə geyimi ilə, qaranlıq arxa planla, bəzəkli bir kəmər altından önə çıxarılmışdır.

Fateh Sultan Mehmet tabloda kürk bir yaxalıq ilə təsvir edilmişdir. Fatehin rəsmi olaraq samur və kakum kürkü istifadə etdiyi məlumdur. Halbuki bu tabloda qurd kürkü çəkilmişdir. XV əsr yazıçılarından Spanquqninoya görə, bu dövrdə İstanbulda geniş şəkildə qurd kürkü istifadə olunurdu. Səfərə çıxan paşalara və elçilərə daha çox kürk geyindirildiyi məlumdur. Lakin heç bir Osmanlı mənbəyində qurd kürkündən bəhs edilməmişdir. Bu halda Fatehin qurd kürkü içində rəsm edilməsi türklərin tarixi simvolu olan Bozqurd ilə əlaqədar olmalıdır.

Türklərin Bozqurd inancı Göy Tanrı dövründən qalmış kimi göstərilsə də, Osmanlı türkləri də düşmənlərini qorxutmaq üçün tez-tez qurd səsi istifadə edirdilər. Bu məsələni Hammerin verdiyi aşağıdakı məlumatlardan daha aydın anlaya bilərik: "Macarlar türkləri daha uzaqdan görüncə "Qurd gəlir" - deyə hayqırmağa başlayırdılar". Osmanlı ordusunun düşmən əsgərləri arasında Bozqurd qorxusu yaratmaq istədiyinə dair Hammerin verdiyi məlumatlar Fateh Sultan Mehmetin tablosunda nədən qurd kürkü istifadə etdiyini izah etməkdədir.

Fatehin tablosunun sağında və solunda hər biri üç olan kral tacları vardır. Bir digər tac da ön plandakı təsvirinin üzərindədir. Bu kral taclarının nələri ifadə etdiyi haqqında müxtəlif fikirlər irəli sürülmüşdür.

Qərb araşdırmaçılarının demək olar ki, hamısı Fatehin kral taclarını dəyərləndirərkən "Kətanın üst künclərindəki iki qrup üç tac - Bizans, Asiya və Trabzon üzərindəki Osmanlı qüdrətini rəmzləşdirməkdədir" fikrini müdafiə etmişlər. Bu təqdimata görə, ikinci üçlü qrup tacların və ön plandakı görünüşü üzərində olan tacın nələri simvolizə etdiyi izah oluna bilmir.

Bəzi araşdırmaçılar Sultan Mehmetin sağ və sol tərəfində yer alan altı tac haqqında "Bunların üçü Osman Qazi, Orhan Qazi və I Murad olmaqla "Əmir" ünvanına sahib üç atasını; digər üçü isə Abbasi xanədanından olan və Misirdəki Məmlük sultanlığı himayəsində yaşayan xəlifə I Mütəvəkkil tərəfindən 1395-ci ildə İldırım Bəyazidə verilən "Sultan-ı İqlim-i Rum" ünvanını daşıyan atalarını ifadə etməkdədir" iddiasını irəli sürürlər. Halbuki Osmanlı imperatorları digər krallara yazdıqları məktublarda atalarından danışmaq əvəzinə fəth etdikləri və sahib olduqları krallıqları sayaraq sözə başlayardılar. Bu məsələ xatırlandığında kral taclarının atalarla bağlı olduğunu müdafiə etmək məntiqli deyil.

Fateh Sultan Mehmet 1453-cü ildə Bizans imperatorluğunu, 1454-cü ildə Serbiya krallığını, 1459-cu ildə Mora despotluğunu, 1461-ci ildə Trabzon imperatorluğunu, 1463-cü ildə Bosniyanı, 1464-cü ildə Karaman dövlətini, 1473-cü ildə Krımdakı Cenova müstəmləkəsi ilə Krım xanlığını və 1478-ci ildə Albaniya krallığını fəth etmişdir. Buna görə Fateh Sultan Mehmet Bizans, Serbiya, Mora, Trabzon, Bosniya, Albaniya kimi bir imperatorluq və beş krallıq olmaqla krallıq tacı daşıyan altı kralı məğlub etmiş və ölkələrini fəth etmişdir. Aydın olduğu kimi, Fatehin portretində yer alan altı tac bu altı krallığı təmsil etməkdədir.

Pəncərə önünə sərilmiş qumaşın ortasında incilərdən hazırlanmış kiçik tac, "dünya malı" olan digər mücəvvərlərin içində rəsm edilməklə padşahlar üçün tacın keçici olduğu vurğulanmışdır. Bu islam təsəvvüfünə aid bir simvoldur. Əslində, bu kompozisiya Sultan Mehmetin rəsmdə verilən mənəvi dünyasını tamamlamışdır.

Portretlərini sakit, lakin əzəmətli bir formada təsvir etməsi rəssamın digər rəsmlərində də görülən bir özəllikdir. Bellini bizə orta yaşlı bir insanın ruhunu ifadə edən gerçək bir psixoloji görüntü təqdim etməkdədir. Hələ də canlılıq yaşadan cizgilərin portretə ustalıqla köçürülməsi ilə rəsmdəki insanın adi bir insan deyil, "Dünyanın Fatehi (Viktor Orbis)" olduğu rəsmin dili ilə izləyiciyə xatırladılmışdır.

Qentile Bellini rəsmin sol tərəfinin aşağısında olan və hal-hazırda çox pozulmuş yazıda Fateh Sultan Mehmeti "Viktor Orbis", yəni "Dünyanın Fatehi" kimi təqdim etmişdir. Bellininin tabloya atdığı imzasının yanına, çox güman ki, Fatehin ona verdiyi "bəy" ünvanının qarşılığı olan "Eques Auratus" sözü də əlavə olunmuşdur.